# Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi



# Dövlət qulluqçularının vəzifə təlimatlarının hazırlanması

**Vəzifə təlimatı**
**kadrların idarə edilməsi sisteminin müxtəlif fəaliyyətlərində istifadə edilən vacib elementdir,**

**Vəzifə təlimatı**
**konkret vəzifə üçün tərtib edilir,**
**yəni müəyyən vəzifənin funksiyalarının təsvir edilməsidir.**

**Dövlət qulluqçusu fəaliyyətini vəzifə təlimatlarının tələblərinə uyğun olaraq həyata keçirir**

# Vəzifə təlimatları qanunvericiliyin tələblərinə uyğun olaraq qəbul edilir,

# dövlət orqanı rəhbərinin əmri ilə təsdiq olunur

# Vəzifə təlimatları aşağıdakılar əsasında tərtib edilir:

1. «Dövlət qulluğu haqqında» Azərbayvan Respublikasının Qanunu
2. İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu
3. «Naxçıvan Muxtar Respublikasının birinci-beşinci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin ikinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri»nin təsdiq edilməsi barədə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Qərarı

## Vəzifə təlimatları şərti olaraq üç hissədən ibarət olmaqla tərtib edilir:

| | |
|---|---|
| **1. Ümumi hissə** | Dövlət orqanının adı, ünvan<br>Vəzifənin adı və kodu<br>Vəzifə maaşı<br>Vəzifənin aid olduğu şöbə (sektor)<br>Vəzifənin aid olduğu təsnifat<br>Bilavasitə tabe olduğu şəxs |
| **2. Qulluq funksiyaları** | Dövlət qulluqçunun həyata keçirməli olduğu qulluq funksiyaları, yəni səlahiyyətləri dəqiq şəkildə göstərilir. |
| **3. Ümumi şərtlər** | Üç hissədən ibarətdir: «Təhsilə dair tələblər», «İş stajına görə tələblər», «Bilməlidir»<br>«Təhsilə dair tələblər» hissəsində vəzifə üçün zəruri olan ali təhsil göstərilir. Qulluq funksiyaları nəzərə alınaraq, bu tələblərdən biri müəyyən edilir:<br>-ixtisas/ixtisas istiqaməti və ya ixtisaslar qrupu/ixtisas istiqaməti və ya ixtisaslar qrupu və ixtisas<br>Bəzi hallarda bunlar göstərilmədən ali təhsil müəyyən edilə bilər.<br>«İş stajına görə tələblər» hissəsində zəruri iş stajına dair tələb göstərilir. Qulluq funksiyası nəzərə alınaraq, sahələrdən biri üzrə iş stajı müəyyən edilir:<br>-struktur bölmənin və ya vəzifənin fəaliyyət istiqamətləri;<br>-vəzifə təlimatlarında vəzifə üzrə müəyyən edilmiş müvafiq ali təhsil<br>Bəzi hallarda sahə göstərilmədən iş stajı müəyyən edilə bilər.<br>«Bilməlidir» hissəsində zəruri olan minimal biliklər göstərilir. Qulluq funksiyaları nəzərə alınaraq, zəruri biliklər (qanunvericilik üzrə) müəyyən edilir, habelə xarici dil və kompüter biliklərinə dair tələblər, zəruri keyfiyyətlər nəzərdə tutula bilər. |

# DİQQƏTİNİZƏ GÖRƏ SAĞ OLUN!